29 oktyabr / 2021

# Dünya əhəmiyyətli unikal müalicəvi kurort

**Azərbaycanın çoxsaylı təbii müalicəvi resursları arasında Naftalan nefti bioloji təsir xüsusiyyətləri və orijinallığı ilə seçilir və dünyada analoqu yoxdur. Hələ neçə min illər öncə Azərbaycanda Naftalan neftindən müalicə məqsədləri ilə istifadə olunurdu. Yalnız yerli əhali deyil, həm Makedoniyalı İsgəndərin döyüşçüləri, Roma legionerləri, Azərbaycana yürüş edən vikinqlər, alan və xəzərlər öz yaralarını müalicə edirdilər.**





Naftalan nefti karvanlar vasitəsilə Kiyevə, Rusiyaya, Mərkəzi Asiyaya, Əfqanıstan, Hindistan və İran körfəzi ölkələrinə aparılırdı. Hətta Azərbaycan şairi Nizami Gəncəvinin poemalarında "Dağ yağı" adlanan Naftalan neftinin dəvə karvanları ilə ölkələrə aparılması haqda məlumatlar da vardır. Orta əsrlərin səyyahı Marko Polonun əsərlərində, "Dəri xəstəliklərinə kömək edən sehri maz" haqqında da söhbət açılıb. 1887-ci ildə alman mühəndisi Yeger indiki Naftalan ərazisində torpaq sahəsi alır və burada xüsusi bina tikdirərək ilk dəfə pullu Naftalan vannası təşkil edir və Naftalan mazının istehsalına başlayır. 1894-cü ildə Azərbaycanda Naftalan-terapiya haqda mətbuatda yazılar dərc edildi. Rus-yapon müharibəsi dövründə yapon əsgərlərinin tibbi yardım çantasında Naftalan məlhəmi olan kiçik qablar olmuşdur. Qabların üzərində qısa və ümidverici bir yazı "Kimdə bu məlhəm varsa, o heç bir yaradan qorxmasın" yazılmışdır. Naftalan nefti haqqında 2700 elmi əsər yazılıb, 270 doktorluq və namizədlik dissertasiyası müdafiə olunub.

## Naftalan nefti sağlamlığın açarıdır



1929-cu ildən başlayaraq Naftalan yatağı ərazisində ixtisaslaşdırılmış Naftalan kurortu fəaliyyətə başlamışdır. Burada SSRİ-nin bütün guşələrindən dayaq hərəkət aparatı xəstəliklərindən, nevroloji, dəri, ginekoloji, uroloji xəstəliklərdən əziyyət çəkən insanlar müalicə olunurdular. Sovet dövründə Naftalan kurortu partiya elitasının ən sevimli istirahət ocaqlarından biri olmuşdur.

Adı dillərdə dastana çevrilən, min bir dərdə dərman olan Naftalan kurortu Azərbaycanın ikinci böyük şəhəri olan qədim Gəncə şəhərindən 50 kilommetr məsafədə ekoloji təmiz bir məkanda yerləşir.

Bu günlərdə, qızıl payız fəslində biz Naftalanda - şöhrəti dünyaya yayılmış "Qaşaltı" sanatoriyasında olduq. Sanatoriyanın baş həkimi Fəxriyyə Əhmədova ilə iş otağında söhbətə başladıq. O, bizi maraqlandıran məsələlərə aydınlıq gətirərək dedi:

- Naftalan nefti dəridən hoparaq kapilyar qan axınına təsir göstərir, kiçik damarlarda qan dövranını yaxşılaşdırır, qan damarlarını genişləndirir, qanın laxtalanmasını azaldır, fermentativ proseslərin aktivliyini yüksəldir, orqanizmin bütün funksiyalarını stimullaşdırır və mikroblara qarşı təsir qüvvəsinə malikdir. Prezident cənab İlham Əliyevin şəxsi təşəbbüsü ilə həyata keçirilən Dövlət proqramları sayəsində Naftalan şəhəri turizm sektorunda ön sıralara yüksəlib. Şəhər iqtisadiyyatının əsasını sanatoriya-kurort infrastrukturu təşkil edir.

Müasir tipli, hər cür uyğunluğa malik olan və dünya standartlarına cavab verən "Qaşaltı" sanatoriyası 5 mərtəbəli binada yerləşir və 2011-ci ildən fəaliyyət göstərir, 8,5 hektar əraziyə malikdir, növ-növ ağac və güllər, uşaqlar üçün əyləncələr, oturacaq stulları, açıq havada müalicəvi idman kompleksi, hovuz, sauna, türk hamamı, əyləncə mərkəzi buraya gələn insanlarda xoş təəssürat yaradır.

Pandemiyadan əvvəl il ərzində bu sanatoriyaya gələnlər 12 minə yaxın idi, onların arasında xarici vətəndaşlar çoxluq təşkil edirdi. İnsanlar ümidlə yaşayır, inanırlar ki, koronavirus minimum səviyyəyə enəcək, sanatoriyaya gələnlərin sayı artacaqdır.

Hazırda "Qaşaltı" sanatoriyasında Belarus, İsrail, Ukrayna, Orta Asiya, Kanada, Rusiya Federasiyası, Latviya və digər ölkələrdən müalicəyə gəlmiş insanlar vardır. Onların normal qidalanması, müayinə və müalicəsi, müxtəlif yerlərə gəzintilərə aparılması üçün hər cür şərait yaradılmışdır.

Vurğulamaq lazımdır ki, Vətən müharibəsi dövründə sanatoriyanın ərazisinə də mərmilər düşdü, sanatoriyanın işçiləri yaralılara hər cür köməklik göstərdilər.

Sanatoriyada 13 həkim, 19 tibb bacısı çalışır. Həkimlərdən Rahibə Aslanova, Rübabə Hüseynova, Elnurə Bayramova, Fərhad Fərhadov, Vüqar Əliyev, tibb bacılarından Nərgiz Mikayılova, Sahibə İsmayılova, Dilguşə Teymurova və başqalarının adlarını çəkmək olar.

Biz sanatoriyada olarkən direktor Anar İbrahimovla da görüşüb söhbət etdik. O, vurğuladı ki, Naftalan nefti Maykor çöküntülərinə aiddir. Burada 7 neftli horizont aşkar edilmişdir ki, onların yalnız 2-də müalicəvi neftə təsadüf edilir. Naftalan nefti şirəyəbənzər konsistensiyalı, qara-qonur rəngli özünəməxsus ətirli qara kütlədir. Tərkibi naften karbohidrogenləri 50-55 faiz, aromatik karbohidrogenləri 10-15 faiz, mikroelementlər (Bor, yod, brom, sink, litium və s.) 10-12 faiz qətran maddələr 14-15 faiz naften turşuları 0,5-3 faiz təşkil edir.

Naftalanın tərkibində əsas təsiredici maddə naften karbohidrogenləridir. Maddələr orqanizmdə olan bioloji aktiv maddələrin əsasını təşkil edir.

Naftalan vannaları 37-38 dərəcə selsi temperaturda qəbul edilir. Müalicə kursu həftəyə 5 vanna, 2 həftəyə 9-10 vanna. Naftalan vannasının yüksək temperaturu dəri reseptorlarını qıcıqlandırır, naften karbohidrogenləri dəriyə nüfuz edir. Dəridən qana sorulan naften karbohidrogenləri olan elementləri ilə birləşir və qanda sirkulyasiya edilərək hüceyrə və toxuma səviyyəsində müalicəyə təsir göstərir.

"Qaşaltı" sanatoriyasında olarkən ayrı-ayrı ölkələrdən bu müalicə ocağına gələn insanlarla da görüşüb söhbət etdik.

**Lena Dubovski (İsrail):**

- İlk dəfədir ki, zavodda çalışan həyat yoldaşım Mişa və qohumum Leonid Yakovleviçlə Naftalan sanatoriyasına müalicəyə gəlmişik. 2020-ci ildə Azərbaycanda Vətən müharibəsi gedəndə hər birimizin ürəyi bu ölkədə olub. Azərbaycanı həmişə dəstəkləmişik. 44 günlük müharibədə zəfər qazanmasına qəlbən sevinmişik.

Biz sanatoriyanın bütün kollektivindən razıyıq. Müalicələrimiz yaxşı gedir, sözsüz ki, şəfa tapacağıq...

**Olqa Karimova (Novosibirsk vilayəti):**

- Sanatoriyadakı Darsenbal, yod-brom vannası, ozonoterapiya, sualtı dartqı, maqniteterapiya, limfodrena solyuks, lazeroterapiya, 4 kameralı qalvanik vanna, karboksidterapiya, vakkumterapiya, karbon qazlı vanna, inqalyasiya, kvars, elektroforez, sualtı masaj, ultrasəs və digər müalicələr olduqca faydalıdır. Vətənə xoş təəssüratla dönəcəyəm. Mən artıq 7-ci ildir ki, Naftalanda müalicə alıram.

**Nikolay Saverski (Ukrayna):**

- Bədənimdə bəzi ağrılar mənə əziyyət verirdi. Həkimlərin məsləhəti ilə günəşli Azərbaycana, Naftalana üz tutdum. Müalicəm əla gedir, oynaq ağrıları vannalardan sonra azalır. Yəqin ki, bu gözəl məkanda şəfa tapacağam.

**Sultanəli Quliyev (Bakı şəhəri, müəllim):**

- Ömrümün 20 ildən çoxunu müxtəlif ölkələrdə sanatoriyalarda keçirmişəm. 74 yaşım var, bu il yaxın dostumla birlikdə "Qaşaltı" sanatoriyasına gəldim. Burada bütün xidmətlər əladır. Müalicələr elmin son nailiyyətləri əsasında aparılır. Həkimlər xəstələrə qayğı və diqqət göstərir. Dietik xörəklər insanları razı salır. Axşamlar insanlar əyləncə mərkəzində istirahət saatlarını şən və mənalı keçirirlər.

Sağlamlığımızı qorumaq, xüsusilə oynaq və dayaq hərəkət sistemində dəri xəstəliklərinə əlvida demək istəyirsinizsə "qara qızıl" çeşməsi Naftalana üz tutun, heç də uzaqda deyil, "Əl uzatsanız çatar"...

**Qədir ASLAN,**
**"Respublika".**